

*Yaqub Qədri Qaraosmanoğlu*
*1889-1974*

# KİÇİK NERON

Manisa hərbi hissə komandiri Filipos kəşfiyyat və hücum batalyonlarına lazım gələn əmirləri verdikdən sonra bələdiyyə mənzilinin eyvanına çıxdı. Bu mənzil bir ildir ki onun həm hərbi qərargahı, həm də evi idi. Mənzilin binası şəhərin qurtardığı və düzəngahlığın başladığı bir nöqtədən hər tərəfə istiqamətlənirdi. Bir az sonra başlayacaq faciəvi səhra üçün buradan daha yaxşı bir tamaşa yeri tapıla bilməzdi. Bu axşam minarələrdən azan səsi eşidilmədi. Faciənin yaxınlaşdığını hiss edən bütün müsəlmanlar ortadan çəkilmiş, indi bir məzar şəklini alan evlərində ölümü gözləyirdilər; bu ölüm nə cür gələcək? Qundaqlamı, bombaylamı? Süngü və ya silahlamı, bilmirdilər... Bilməməkdə haqları da vardı; ancaq hərbi hissə komandiri Filipos hər cür ölümü əmr etdi, elə ki, üç il yarımdan bəri zülm və zorbalıq işlətməkdə böyük bir məharət peyda edən vəhşi əsgərlər belə bu zaman haradan başlayacaqlarına təəccübləndilər. Bazar ortasında səhər tezdən başlayan hücumlar, təcavüzlər, tək-tək yaralama və öldürmə hadisələri bu təəccüb əlamətlərinin ən bariz misallarındandır. Hər şey müəyyən bir saatda, müəyyən bir tərzdə, gecənin qaranlığında baş verəsi idi. Lakin bu haqsızlıqlarda intizamsızlığı çıxaran amillərin ən böyüyü düşmən əsgərlərindən əvvəl şəhəri tərk etmək məcburiyyətində olan yerli xristianların qəsb, talan və cinayət ehtirası idi. Bunlar əsgərlərin arasına qarışdı; varlıların olduğu evlərə girdilər, mağaza və dükanların qapılarını qırdı, topladıqları əşyanı əvvəlcə yenə müsəlmanlardan oğurlanmış heyvanlara yüklədib qaçmağa başladı və bu vəziyyətdə Filiposun əsgərləri də əsil vəzifələrini unudaraq hər biri özbaşına hərəkət etməyə başladı. Halbuki, əfradı zəngin etməkdən, müsəlman əhaliyə dağılıb qaçma fürsətini verməkdən başqa bir şeyə yaramayan bu kimi mənfur hərəkətlər, yeganə hədəfləri ümumi bir qətliam olan komandirlərinin heç işinə yaramaz. Buna görə də Filipos bütün günü axşama kimi əlinin altındakı müfrəzələri bir nizama salmağa çalışdı. Hamısı üçün planlaşdırılan proqram daxilində bir vəzifə verdi. Kiməsə yanğın bombaları, kiməsə yanğın çınqılları, kiməsə benzin tənəkləri dağıtdı və geridə qalan silahlı əfradı şəhərin müəyyən nöqtələrində müsəlman əhalisini atəşdən qaçırmağa çalışdı. Bunlar üç min kişiyə yaxın vardı və gündüzdən guya şəhərin asayişini qorumağa çıxan müntəzəm dövriyyələr halında küçələrdə çoxlu halda dolaşmağa başladı.

Hər şeydən əvvəl intizam və asayişi sevən müsəlman əhalisi evlərinin pəncərələrini yarıya qədər açıb bunlara baxır; içərilərindən, «görəsən, artıq bizə bir şey etməyəcəklərmi?», -deyirdilər.

Əsasən, bunların çoxu günlərdən bəri davam edən faciələrdən də daha müdhiş olan şaiələrdən qorxaraq qohum-qonşu, əqrəba və yaxınları məhəllə-məhəllə həmişə bir araya toplanmışdılar, kişisiz qadınlar kişili evlərə, yaşlı qocalar qüvvət və cəsarətlərinə bel bağladıqları cavan igid oğlanların yanına sığınmışdılar və hamısı qocalar peyda olacaq, təslimiyyət halına yaxın bir təvəkküllə gözləyirdilər. Gah yandakı bir evin qapısı qırılır, içəridən boğuq bir neçə səs eşidilir, bir qadın hayqırtısı qopur, bəzi uşaq xəncərlərinin ürək parçalayan fəryadlarla yırtıldığı eşidilir və bunlar arxadan gələn bir neçə silah səsi ilə sükutu qaytarırdı. Daima silah səslərini təqib edən bu sükut ətrafdakı evlərə, o səslərdən, o çığlıqlardan, o uşaq fəryadlarından daha betər dəhşət salırdı. Bu evdəkilər canlarını qurtarmaq üçün hər şeylərini verməyə razı idilər. Lakin bu vəhşi soyğunçuları nə qızılla, nə gümüşlə təmin etmək mümkün idi. Pulu aldıqdan sonra namusuna təcavüz edirdilər, namusa təcavüz etdikdən sonra qana susayırdılar. Dünyada şahlanan, azğın ağılsızlıqdan daha müdhiş nə vardı? Bu dəhşətli afəti Manisa xalqı üç gün, üç gecə içərisində keçmişi və gəlmişi insanların hamısından daha yaxşı anladı. Ah, bu xalqın gözlərindən o vəhşi lövhələrin icazəsini hansı ülvi kədərin göz yaşları siləcək? Yeddi yaşında uşaqlar yetmiş yaşında qocaların da görmədiyi iyrəncliklərı gördü, eşitmədiyi rəzalətləri eşitdi, görəsən, günün birində bunların hamısını unutmağa və bir günəş altında insanlıq, yaxşılıq, gözəllik deyilən bəzi ilahi şeylərin mövcud olduğunu bilməyə nail olacaqlarmı? Çox təəssüf, o gün düşmən vəhşiləri yalnız soymurdu, yalnız öldürmürdü, bundan daha dəhşətli bir şey edirdi, qəlblərdəki iffət və ismətə təcavüz edirdilər. Ruhumuzun yeganə şöləsi olan əxlaqi və insanı hissləri boğurdular. «...»zadələrin səkkiz yaşındakı uşağı «...»un gördüyü vəhşət onu mütləq həyatının sonuna qədər təqib edəcəkdir. Cəddinin ağsaqqalını qızıl qana boyayan əllərin hərəkətini, gənc anasıyla yerdə boğuşan vücudların heyvani təxəllüslərini əsla unutmayacaqdır və bu ləkə günün birində onun varlığını qaplayacaqdır. «...» kimi neçə uşağın və «...» kimi neçə qızın saflığı və isməti, buna bənzər neçə vaqiə ilə kirlədildi, bundan belə, hansı təxrib dərsi bunları yaxşılığa və doğruluğa inandıra bilir?

Komandir Filipos yanğını seyr etmək üçün bələdiyyə binasının eyvanına çıxanda belə şeyləri düşünməkdən çox uzaq idi. Gah aşağı, gah yuxarı gəzişir, gah durub gözlərini şəhərə dikir və tez-tez yanına gəlib-gedən zabitə:

-Çox gecikdilər, bu gecə hər şey olub bitməli idi, mütləq hər şey olub bitməli idi, - deyirdi.

Və ətrafı səssizliklə bərabər qaranlıq bürüdü. Yalnız uzaqdan-uzağa bəzi qatar, avtomobil səsləri bir çox şəxsin qəfil qaçışları və yuxarı tərəflərdən gələn pərişan əsgərlərin bir-birilərinə bağırışları duyulurdu. Filipos bu səsləri eşitdikcə daha çox əsəbiləşir, səbirsizləşir, qaçmaq üçün gecikməkdən qorxurdu.

Nəhayət, saat səkkizə doğru çöl məhəllədən dumanla qarışıq alov sütunu yüksəlməyə başladı, zabit:

-Budur!..., - dedi.

Bunun ardınca bazarın arxa tərəfindən alaca bir duman koması daha göründü. Bunun üzərindən beş dəqiqə ya keçdi, ya keçmədi şəhərin o biri ucundan havaya quzğun bir atəş püskürdü. Filipos üzü bu alov sütunlarına çevrilmiş olduğu nöqtədə durdu, başdan-başa diqqət kəsilmişdi, artıq bir az öncəki təlaşından əsər qalmamışdı. Çöhrəsində böyük bir dəniz heyvanının sükunəti vardı, öz-özünə söylənir kimi:

– Mütləq məscidlər də xilas olmalı...məscidlər...məscidlər üçün müəyyən aktivlik varmıydı? - dedi.

İndi alov və duman sütunları cadulu bir su ilə dəqiqədən-dəqiqəyə böyüyüb sərpilən qızıltılı ağaclar halında ətrafa dal-budaq salır və rüzgarın istiqamətinə doğru qığılcımlar saçaraq diksinirdi. Hərbi hissə komandiri Filipos bu qığılcımların işığında həmişəkindən daha bəyaz görünən minarələrə baxdı, bir-bir, iri-li-xırdalı otuz səkkiz dənə idilər! Faciədən bixəbər görünürdülər, o qızıl dalğalar içində sanki narın, ləkəsiz qu quşu boyunlarını xatırladırdılar.

Yarım saat ərzində şəhərin beş-on nöqtəsindən birindən partlayan və qəfilcə bir-birinə qol ataraq genişlənən yanğın Manisanı bir yanardağ halına gətirmişdi. Dərindən-dərinə yıxılan evlərin çatırtıları, bağrışan xalqın vaveylası, silah səsləri və bomba taraqqaları həmişə bir araya qarışaraq şiddətli bir külək əsnasında bir meşədə duyulan qorxulu uğultularını xatırladırdı.

Komandan Filipos özü bir səhranı seyr edən bir tacidar kimi idi, buna rəğmən hələ yerində otura bilmir, eyvanda qamçısını sallayaraq gah aşağı, gah yuxarı dolaşırdı və ikidə bir barmaqlıqdan çölə sallanıb oradan keçən yunan əsgərlərinə səslənirdi:

– Hökumət iqamətgahını nə vaxt atəşə tutacaqsınız? Stansiya ətrafındakı müsəlman evlərini unutmayın! Xalqın dağılmamasına diqqət edin! Nə durmusunuz? Haydı, -deyirdi və onlar da sağa sola qaçmağa başlayırdılar. Çox keçmir, hökumət qonağı da tutuşur dayanacaq kənarında tək-tük alov və duman sütunları baş göstərirdi.

Lakin düşmən dövriyələrinin küçə başını tutan nöqtələrin bütün cəhdlərinə rəğmən evlərindən çölə fırlayıb küçələrə yayılan xalqı dağlara və düzənliklərə dağılmaqdan məhrum edə bilmədilər. Bu xalqın evlərindən çölə çıxması, eyni zamanda müxtəlif nöqtələrdə həmişə birdən fışqıran suların bircə kiçik sel halında axışı kimi bir şey oldu. Düşmən cəhənnəmin gözətçiləri köşə başlarında yol dolanbaclarında hər biri ayrı istiqamətə doğru axan bu selləri boş yerə durdurmağa çalışdı. Güllə, metralyoz, bomba, süngü heç bir əngəl kar etmədi, çılğın xalq kütləri təbii qüvvələrdən bir ünsür halında atəş və dumandan şəhərin ətrafına daşdı. Düşmən əsgərləri gah atın üstündə, gah oxa, bu kütlələrin üzərinə hücum edirdilər, qadın demir, qoca demir, tüfəngin dibcikləri ilə döyür, süngülərini saplayır, boğur, öldürür. Fəqət, hər kütlədən qurtulub qaçacaq bir qism qalırdı.

Özünə bu məlumatı gətirən əsgəri, komandan Flipos az qalsın öldürəcəkdi:

-Alçaqlar! Gözünüz həmişə malda, həmişə malda..., - deyə bağırırdı. Cibiniz doldumu gerisinə baxmırsınız, əsil vəzifənizi unudub qaçmağa başlayırsınız!

Və sol yanındakı əmir zabitinə dönərək;

– Vəsiləki, tez-tez.. Mənim mühafizə qoşunumu alarıq. Nə edirsiniz-edin. Bir dənəsini sağ buraxmayacaqsınız, bir dənəsini...

Dedi və təkrar ərköyün bir uşaq tövrü ilə indi uzaqdan-uzağa ətrafını əhatə etməyə başlayan qızıl və uğultulu meşəni tamaşaya daldı.

Komandir Filipos bu vəhşi münaqişədə nə qədər qaldı, heç özü də bilmir. Lakin bir an gəldi ki, olduğu yerdə daha çox dura bilməyəcəyini hiss etdi. Yanğının qığılcımları üstünə-başına yağırdı və hava nəfəs almayacaq dərəcədə dumanla, hərarətlə dolu idi. Bundan başqa hər dəqiqə türk əsgərləri şəhərə bir az daha yaxınlaşırdı. Eyvandan sürücüyə səsləndi:

-Avtomobil hazırdır?

Fəqət, aşağıdan heç bir səs ona cavab vermədi, düşmənlərlə dağılmış və qaçaq əsgərlər arasına qarışan bu adam çoxdan avtomobilini buraxıb getmişdi. Bələdiyyə mənzilinin qabağında bir müddət sağınasoluna baxdı, gözləri dumandan heç bir tərəfi görmürdü. Bir kabus içindəymiş kimi, nə edəcəyini bilməyərək yırğalana-yırğalana stansiyaya doğru qaçmağa başladı.

*1922*

*Türkiyə türkcəsindən çevirəni:*



**Aynurə Paşayeva**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi*

*1) Özünəvurğunluğu və qəddarlığı ilə seçilən Yulilər-Klavdilər sülaləsindən olan Roma imperatoru Klavdi Sezar Neron (54-68)*

*2) Ər, onbaşı ve çavuşlara verilən ümumi ad*

*3) Müxtəlif əsgəri xidmətlərin yerinə yetirilməsi məqsədi ilə kiçik birliklərdən bəlli bir quruluşa malik keçici olaraq yaradılan qrup*